# USTAD YANAN OCAQDA

## ŞAİR HÜSEYN KÜRDOĞLUNUN HƏYATI VƏ YARADICILIĞI HAQQINDA MƏQALƏLƏR, XATİRƏLƏR, DÜŞÜNCƏLƏR

(Əvvəli 8-ci səhifədə)

## QÜRUR QAYNAĞI: SÖZÜN ETNİK YADDAŞI

### I. Türk-Azəri varlığının tərənnümü

*Ayrılıqdan yana Diri göynəyir,*
*Araz qırağında Pəri göynəyir.*
*Tikanı çıxartdım - deyən Xələfli,*
*İndi də tikanın yeri göynəyir.*

*Vecsiz oğul yurdu yol bilər, atar,*
*Ocağın qorunu kül bilər, atar;*
*Vurğunu daşlayan nadanlar bir gün,*
*Hüseyn Kürdoğluya selbələr atar.*

**Əli Rza Xələfli.**

Sözlər daha yaddaşlıdır, hətta sözü yaradanın, sözə elə sözün özündən min cürə don biçənin özündən də. Nəzərə alsaq ki, sözü yaradan *«səksən, doxsan, bir gün yoxsan»* hökmündən əbədiyyən çıxa bilməz. Əlbəttə, söhbət cismani yoxluqdan gedir.

Düşünürdüm ki, ustada yönəlik duyğu və düşüncələrimi *«Ayrılıq»* poeması ilə ürəyimdəki tikanı çıxaracaq qədər gücdə yazmışam. Ancaq günlər keçdikcə və kitabın nəşri də ləngidikcə varlığımda yeni sızıltılar baş qaldırdı.

Bu göynəmənin də kökü son günlər S.Vurğunun ünvanına səslənən hərzə hədyanların bir gün bütün dəyərlərimizə çevrilə biləcəyi ilə bağlıdır. Düşmən dəyirmanına su verənlər nə olur-olsun təki *«türkə - azərə ziyan olsun»* qənaəti ilə boğaz yırtır, əllərindən gələni əsirgəmirlər. Moskvadan (indi İrəvandan) yayımlanan bir verilişə cavab verə bilənləri Vorfolomeylə hədələyənlər Nizamini..., Vaqifi..., Vurğunu... qeyri-türk kimi təqdim etməkdən də utanmırlarsa, Hüseyn Kürdoğlunun ədəbi təxəllüsünü əldə dəstəvuz etməklə onu kökündən qoparmağı daha asan bilməzlərmi? Kitabdan, yazıdan kütləvi ayrılmanın indiki vaxtında yeni nəslin düşüncəsinə bu əsassız qarayaxmaları yeritmək elə də çətin deyil. Üstəlik bizim özümüzdə də küyə getmək meyli güclüdürsə, düşmən bu üsuldan niyə istifadə etməsin.

Bədxahlar qara niyyət daşlarını niyə də atmasın, əgər vaxtında və yetərli cavab almırlarsa... Bir şair şərqşünas dostum var. Bir gün soruşdum *«bir şərqşünas Hüseyn...»* sözümün gerisini gətirmədim.

Əlüstü cavab verdi: *«Hə, kürd balası, Hüseyn Kürdoğlu...»*. Məni od götürdü. Şair şərqşünas, kürdoloq Hüseyn Kürdoğlunun nəsil şəcərəsini danışdım. Sonda da görkəmli alimimiz Qəzənfər Paşayevin son tədqiqatlarından faktlar gətirdim, məlum ədəbi təxəllüsün tarixçəsi ilə bağlı məqamı da professorun *«Hüseyn Kürdoğlunun poetik dünyası»* (2017) kitabından olduğu kimi oxudum: *«Bakı Dövlət Universitetində Ədəbiyyat dərnəyinə rəhbərlik edən məşhur şair Bəxtiyar Vahabzadə günlərin birində üzünü Hüseyn Alışanova tutaraq deyir ki, sən artıq şairsən. Qalır təxəllüs götürməyin. Bildiyimə görə Laçındansan. Məsləhət görürəm «Kürdoğlu» təxəllüsü ilə yazasan. Gənc şair müəlliminin sözünü yerə salmır. Əksinə müəllminin xeyir-duası, necə deyərlər, ilhamının üstünə ilham gətirir»* **(səh.20-21)**. Və bundan sonra *«Bəs niyə Kürdoğlu adını götürüb?»* sualını cavabsız qoyuram. Belə yerdə yaxşı deyiblər: *«Necəsən, qanmayım, dədən yansın»*.

Mən Cəbrayıl rayonunun Xələfli kəndindənəm. Bir *«əldəqayırma tədqiqatçı»* Cəbrayılla bağlı kitabını mənə verib getdi. Sən demə bizim kəndimizə nə vaxtsa *«Kürdbəylilər»* deyirmişlər. Özümü məlumatsız hesab eləmirəm. Kəndimizin də min illik tarixi ilə tanışam. Bu *«elmi kəşfin»* müəllifi hansı sifarişlə belə yazıb, bunu gərək hər kəs özü düşünsün. Yalançı *«xəritələrdə»* Cəbrayılın da həmin qara rəngə çəkilməsi göstərir ki, hansısa qara qüvvələrə nələrsə lazımdır.

Mövzudan uzaqlaşmayım. Qarabağın, eləcə də Laçının işğalına dözməyən Hüseyn Kürdoğlu sözü ilə əsil türk ərəni kimi düşmənə qarşı döyüşürdü. Bu döyüş, həm də onun türk soyuna xor baxanlara qarşı çevrilmişdi. Şairin *«İstiqlalımız»* qəzəli (bu qeydlər şairin ölümündən sonra nəşr olunan *«Yurduma qurbandır sözüm»* **(Bakı, Sabah-2005)** kitabına istinadən qələmə alınıb. - Ə.R.X) od yurdu, milli bayrağı, milli dövləti ilə öyünən, fəxarət duyan sənətkarın vətəndaşlıq himnidir:

*Baş qoyub, can qıymışıq, qeyrətdir istiqlalımız,*
*Qanımızda kükrəmiş qüdrətdir istiqlalımız.*

*Hürriyyətsiz millətin tarixə düşməz surəti,*
*Şöləvər Od yurduna şöhrətdir istiqlalımz.*

*Verib öz varımızı, biz pay umurduq özgədən,*
*İndi öz yurdumuza sərvətdir istiqlalımız.*

*Müştərək bayraq ilə aldanmışıq qəflətdə biz,*
*Ərşə qalxır bayrağı - dövlətdir istiqlalımız»*

Şair özünün geniş qəlbi, sonsuz humanizmi ilə bəyan edir, mənsub olduğu xalqın - azəri türklərinin qeyri dillərə, millətlərə hörmət və ehtiramlı münasibətini:

*Ta əzəl gündən bu torpaq sığnaq olmuş ellərə,*
*Hər dilə, hər millətə hörmətdir istiqlalımız.*

Hüseyn Kürdoğlu kimi şair başqa cür necə danışmalı, necə yazmalı, daha nəyi deməlidir ki, onu doğru-düzgün qavrasınlar. Hüseyn Kürdoğlu öz istiqlalı ilə dünya dövlətlərinin cərgəsində yer alan Azərbaycanla fəxr etdiyi kimi Ulu Öndərin də *«hər yığnağın fəxri olmasından»* qürur duyurdu. O, Ulu Öndərin Böyük Türkiyə ilə Azərbaycan münasibətini, bu bağların mahiyyətini ifadə edən məşhur deyimini də yaxşı bilirdi: «*Biz bir millət - iki dövlətik*». Onun Ulu Öndərin ünvanına sevgi ilə səslənən misraları həmin deyimdən güc alırdı:

*Fəxridir hər yığnağın Öndərimiz dünya boyu,*
*Haqsevər dünya ilə ülfətdir istiqlalımız.*

Laçının Hacılar kəndindən dostum var Etibar, Quşçu kəndindən sözünə, düşüncəsinə vurğun olduğum Ötərxan Eltac var, sərrast qələm sahibi, istedadlı yazıçı-publisist Nemət Bəxtiyar və onlarca qeyriləri ilə söhbətdə şahidi olmuşam ki, onlar eyni qənaətə gəliblər: kimlərsə bizim kimiliyimizi əlimizdən almağa cəhd göstərirlər: Milləti onun ziyalısından ayıranda millət gücsüzləşir. Gücsüzlük mühitində isə bütun qara niyyətlərə yollar açılır.

Hüseyn Kürdoğlu isə vuruşur, bu gün də yaşarı poeziyası ilə vuruşur. Sözü ilə yaratdığı Vətən xəritəsini əsgər vətəndaş hünəri ilə qoruyur.

Milli qürur, vətəni ilə fəxr etmək, yurda bağlılıq, Azərbaycana, eləcə də Laçına sevgi Hüseyn Kürdoğlu poeziyasının baş xəttidir. Ömrünün son çağlarında az qala hər misrasından baş qaldıran Qarabağ onun yurd həsrəti ilə yanan sümüklərinin sızıltısından xəbər verir:

*Ay aman, gözümdən, könlümdən yenə,*
*Qarabağ, Qarabağ, Qarabağ keçir.*
*Ziyarət, İşıqlı, Qırxqız, Mıxtökən*
*Gözəl Gəlinqaya, Dəlidağ keçir.*

Mən bu *«Qarabağnamə»*ni, həm də danışan adların, dağların, yerlərin, yurdların şeiri də adlandırardım. Çünki adlar (toponimlər) hissin, həyəcanın və şair yanğısının təsiri ilə sanki canlanır. İnsanlaşır, ruhən şairlə danışır. Sözün, misranın içində iki obrazın - türk və yurd birliyinin mahiyyəti ehtiva olunur.

Hüseyn Kürdoğlu Yaddaş Sahibi olaraq insan-yurd anlamında mənə qədim Ellin mifindən Orakulu xatırladır. O, sanki adlarla düşüncənin alt qatı ilə gördüyü gələcəkdən xəbər verir: *«Əgər, siz bu adları unutsanız, gələcəyiniz qaranlıq olacaqdır»*. Bu Orakul düşüncəsi (türk anlamında Dədə Qorqud düşüncəsi) şairin son dövr yaradıcılığında bir-birini qova-qova bəzən tələskənliklə, bəzən hamısını deməyə vaxt çatmaz xofu ilə təzahür edir. Sadəlik (bəzən sadəlöhvlük təsiri bağışlayır), səmimilik, inandırıcılıq, yurdun Qaraçuxası - şair son anacan Yaddaş Sabihi missiyasını qoruyur. Oxucu şeirdən şeirə keçdikcə Hüseyn Kürdoğlunun daha nəyi deyəcəyini səbirsizliklə izləyir. Bu məqamda bir vaxt yazdığım *«Həyatın dastanı»* adlı **(2012)** əbədi fəlsəfi düşüncələr əsərimdəki (qeyd edim ki, bu əsər şair filosof Hamlet İsaxanlının *«Ziyarət»* poemasının motivləri əsasında yazılıb. Ziyarət yurda dönüşün mənəvi psixoloji mahiyyətidir - **Ə.R.X**). Yaddaş sahibi ilə Hüseyn Kürdoğlunun şair obrazı arasında mənəvi bağlılıq, doğmalıq, hətta bir çox hallarda Orakül sayağı qohumluq görürəm: *«Onun (Yaddaş Sahibinin - Ə.R.X) çox güclü məntiqi var. Saydığımız xüsusiyyətlərin hər birisi onun cazibəsini artırır. Əgər o ilk baxışdan düşündüyümüz kimi, zəif və aciz olsaydı, xüsusi yaddaş ağırlığını öz çiyinlərində daşıyıb, maneələri dəf edib yurdacan gəlib çata bilməzdi. Obrazın məntiqini, xüsusilə, bu məntiqin fəlsəfi mahiyyətini dünyanın görkəmli filosofları mühakimələrində, ədəbiyyatşünasları təhlillərində və eyni zamanda, şairləri yaratdıqları xarekterlərdə açmağa çalışıblar. Sovet filosofu Y.E.Qolosovker (1890-1967) obrazın məntiqi haqqında danışanda mühakimələrini belə təqdim edir:*

***"Obrazın məntiqi bütövlükdə tamamlanmış surətlərin mənasının sonacan tükədilməsindədir. Yəni ki, bütövlükdə tamamlanmış surətlərin saçdığı mənalar ardıcıllığından obrazın məntiqi doğur. Düzü, mifdə o, özünü əyrilər üzrə hərəkət edib bir çevrəni qapadan yeganə konkret surətlərin ardıcıllıq cərgəsində aşkarlayır". (Y.E.Qolosovker. "Mifin məntiqi". Kitab aləmi. Bakı, 2006. s.63)***

*Beləliklə, obrazın məntiqi yaradıcının bütövlükdə təqdim edə bildiyi, mənasını axıracan aça bildiyi surətlərdə tamamlanır. Görünür, tərcüməçi birinci cümlədə artıq bir dəfə "tamamlanmış" ifadəsini işlətdiyinə görə, cümlənin sonunda həmin ifadəni təkrarlamamaq üçün "tükədilməsində" sözü ilə barışmalı olmuşdur. Əlbəttə, mahiyyət bununla bağlı deyil. Deməк, obrazın məntiqi onun estetik təsir dairəsindən, yaratdığı mənalar yükündən və bu mənaların xüsusi məntiqi ardıcıllıqla birbirini tamamlayan izləməsindən çox asılıdır. Yaddaş Sahibi də ayrı-ayrı məna və mahiyyətlərə vararkən elə incə məqamları diqqətə çəkməli olur ki, biz yalnız bu qabarıq əlamətlər sayəsində zəncirvari ardıcıllığı mənəvi dünyamıza yığdığımız estetik hisslələ qoruyub-saxlayır, bizə olan təsiri özümüz üçün sərvətə çevirmiş oluruq. Bu əsərdə qəribə bir məqam mənim diqqətimi çəkir. Elə "Ziyarət"in əvvəlindəcə Yaddaş Sahibinin eynək taxdığını müşahidə edirik. Hələ yarı yaşına çatmamış bu adam yaddaş aləminə eynəklə baxır. Əlbəttə, söhbət əsərdə həyatdan gedir. Zənnimcə, bunun özü də çox dəyərli və xüsusi məna kəsb edən bir cəhətdir, əsərin daha dərin qatlarla bağlı olduğuna işarədir. Bu mənada, həmin əlamət elə böyük əhəmiyyət kəsb edir ki, onun haqqında daha əsaslı danışmamaq mümkün deyil. Demək, görkəmli filosof təqdim elədiyimiz məntiqin davamı olaraq yazır:*

***"Dairənin qapanması ilə bütöv obrazın mənası da tükənir. Yeganə konkret surətlərin məna ayrısı boyunca hərəkəti əksərən qarşıdurma prinsipi üzrə gerçəkləşir. Beləliklə, bütöv "görmə" ("baxan göz" və "korluq") obrazında təkgöz Kiklop yeganə konkret surət kimi mingözlü Arqusun surətinə qarşı qoyulur; gözləri baxa-baxa ruhən kor olan, zorən cani edilmiş Edipə qarşı fiziki cəhətdən şil, amma mahiyyəti mənəviyyatının "gözü" ilə görə bilən, qeybdən xəbərlər söyləyən falçı Tirezi dayanır. Hətta Kolon şəhərində peyda olub daxilən nurlanmış kor Edip də əvvəlki şah Edipin qarşıdurumudur"(Yenə orada).***

*Biz təhlilçinin dairənin qapanması ilə obrazın mənasının tükənməsinə ilkin başa düşülən mənada yox, daha geniş mənada yanaşmalıyıq. Yəni, əslində, Yaddaş Sahibi ilə yaddaşın istiqamət verib gətirdiyi obrazın qarşılaşdığı məqam dairənin qapanmasıdır, bundan sonra baş verənlərin hamısı bu dairənin içərisində cərəyan edir. Biz dairənin içərisini bütün maddi və mənəvi aləmin mahiyyəti kimi qavramalıyıq. Qədim yunan mifologiyasına söykənən müəllif təkgözlü ilə mingözlünü yada salır. Onların qarşılaşmasında da əsl həqiqət üzə çıxmır, demək həqiqəti görmək üçün yalnız cismani olaraq görən gözlər hələ əsas deyil. Qədim yunan mifindəki Tirezi - Orakul cismani olaraq görmür. Amma o, həyatı bildiyinə görə mənəvi aləmdəki hadisələrin məntiqi ardıcıllığını dərk etdiyinə görə, gələcək haqqında da doğru və dürüst məlumatlar verə bilir. Hətta filosof fikrinin sonunda eyni şəxsin iki dövrünü də yada salır. Gözlü tiran Edip mənəvi korluğun nəticəsində necə böyük cinayətlər törədir. Amma həyatı dərk etdikdən sonra - fəqət bu zaman o, gözlərinin ikisini də itirmişdir - hətta başqalarının görə bilmədiyi həqiqətləri görə ilir, dərk edə bilir. Yalnız onun bundan sonrakı həyatı mənəvi, sağlam həyat ola bilərdi. Beləcə, Yaddaş Sahibi aliməqam bir zirvədə görünür. Cismani olaraq gözlərinin nurunu itirsə də, mənəvi gözləri tamam açıqdır, onun bəsirət gözləri o qədər nurlanmışdır ki, cəmiyyətə liderlik etmək istəyənlərin, fəqət mənəvi korların - hiyləgər siyasilərin, onun axtardığı bütün dünyanı gəzdikdən sonra qayıtdığı yaddaş aləminin ətrafında nə qədər dəhşətli torlar hörsə də, yenə bu torların labirintlərin arasından işıqlı dünyaya aparan çıxışı görə bilir. Əgər onun bu fəhmi, zəkası olmasaydı, demək, onun ətrafında da qeyri-adi canlanma, dirilmə mümkün olmazdı"* **(Əli Rza Xələfli, "Həyatın Dastanı", ədəbi - fəlsəfi düşüncələr, Bakı, Xəzər Universitəsi Nəşriyyatı, 2012, səh. 69-71)**. Bu xatırlamanın gətirdiyi ovqatla Yaddaş Sabihi Hüseyn Kürdoğlunun narahatlıqlarının, onun iztirablarının gözlərim qarşısında açılan mənzərəsinə baxıram. Hüseyn Kürdoğlunu cılızların, düşgünlərin onun soyuna şəkkaklıqla yanaşacaqları düşündürmürdü. Onu düşündürən bütövlükdə millətin (və Vətənin) gələcək taleyi idi. Haranın, hansı yurdun Vətəndaşıyam deyəndə də, mənqiti elə qururdu ki, nəsillər, gecələyin adamları onun kimliyini də aydın təsəvvür eləsinlər.

*Neçə min ildirsə xalqımın yaşı,*
*O qədər zamanın vətəndaşıyam.*
*Göy yaylağım oldu dağların başı,*
*Şirvanın, Muğanın vətəndaşıyam.*

Neçə min ildən söhbət gedir. Bu neçə min illərin tarixi gözlərimiz önündən keçir. Qafqazdan üzü Şərqə, oradan da təzədən Qərbə yön alan tarixi türk köçü bütün əzəməti, yenilməzliyi, gücü, qüdrəti ilə şairin təbirində *«o qədər zamanın»* ifadəsinə sığdırılır. Və burada qədimlik, sonsuz hərəkət və yorulmazlıq türkün təbiəti kimi özünü büruzə verir. Bu yolda, həm də ardıcıl, davamlı inkişaf, yüksək mənəvi dəyərlər yaratmaq türkün mənəvi inkişafının göstəricisidir:

*Dəyə də, muxru da, saray da qurdum,*
*Azğın yağıların ağzından vurdum.*
*Uca dağlarımla yanaşı durdum*
*Yenilməz məkanın vətəndaşıyam.*

Burada Dadaloğlunun ölməz *«Fərman padşahındı, dağlar bizimdi»* deyimi yada düşür. Sanki həmin fikrin davamı olaraq şair Hüseyn Kürdoğlu da *«uca dağlarımla yanaşı durdum»* deyir. Və bu dağların yenilməzlik məkanı olması ilə fəxr etdiyini dilinə gətirir.

Ümumiyyətlə, *«Vətəndaşıyam»* rədifli şeir bütövlükdə şairin mənəvi tərcümeyihalı, onun yurd Kredosu kimi səslənir.

*(Davamı var)*